ədalət.- 2021.- 17 iyul.- S.22.



Oqtay Abdulla

## BƏNÖVŞƏ

*Adəmdən indiyə susursan nədən,*
*Gizlənib gözündə həyan bənövşə!*
*Sevilib sevmək də qismətindədir,*
*Yan keçməz ətrini duyan bənövşə!*

*Bu təbim, bu ruhum oynadır yenə,*
*Elə vurulmuşam sənin hüsnünə.*
*Əymisən boynunu nədən köksünə?*
*Sözüm var vəsfinə dayan, bənövşə!*

*Mirvari misralar qismətindədir,*
*Sənin ucalığın ismətindədir.*
*Çox sözüm sinəmdə həsrətindədir,*
*Qəflət yuxusundan oyan bənövşə!*

*Danışım, nə deyim, söyləyim sənə,*
*Fikirin göylərdə, xəyalda yenə.*
*Bu halın pərişan, dərd olub mənə,*
*Uçubmu dağların, qayan bənövşə!*

*Sevgimi, eşqimi ara sözümdə,*
*Hüsnü gözəlliyin nurdu gözümdə.*
*Arasan bu saat, deyləm özümdə,*
*Duyğumu, hissimi duyan bənövşə!*

## SORAĞINDAYAM

*Gözlərim yollarda, qulağım səsdə,*
*Bir saçı sünbülün sorağındayam.*
*Qonağım olaydın günün birində,*
*Bu şair könlümün sarayındayam.*

*Ömrümüz çox qısa, səbrimi kəsir,*
*Mürgüsüz ağrılar canımda gəzir.*
*Bir dünya telimə hey sığal çəkir,*
*Zamanın gərdişin darağındayam.*

*Mən olum qurbanın, qoy olum neynək,*
*Hər anın, hər ayın, ilin mübarək.*
*Eybin də gözümdə görünər nur tək,*
*Ocağın tonqalın marağındayam.*

*Hər qələm götürən anlamaz məni…*
*Çömçələr, qaşıqlar bulamaz məni.*
*Yandırmaz hər atəş, qalamaz məni,*
*Son ünvan məzarım yarağındayam.*

*Bu yolda dərd-kədər, qəm-qüssə yesəm,*
*Qurusun dil-ağzım bir kəlmə dinsəm.*
*Dərd deyil a dostlar, bu dərdlə ölsəm,*
*Sevgilim, Vətənin torpağındayam.*

## QAYTAR

*Tanrıya hər kəs, eyləsə biət,*
*Var orda ehtiram, böyük məhəbbət.*
*Olaydı nəsibim, nə dərdim fəqət,*
*Allahım, sən məni özünə qaytar.*

*Şair var gəlişi, gedişi naşı,*
*Çiyninin üstündə görürəm daşı.*
*Allahım, sən məni gözündən daşı,*
*Allahım sən məni gözümə qaytar.*

*Şair var imzası möhürsüz olur,*
*Şair var ölümü döyüşsüz olur.*
*Şair var ölümü ölümsüz olur,*
*Allahım sən məni dözümə qaytar.*

*Şair var nəfəsi tanımır sərhəd,*
*Sözün xiridarı verərsə qiymət.*
*Oynadır ruhumu oynadır fəqət,*
*Allahım sən məni izimə qaytar.*

*Tanrım özü vermiş şairə qiymət,*
*Şairə ehtiram, şairə hörmət.*
*Şairin nəfəsi, sözü şeiriyyət,*
*Allahım sən məni sözümə qaytar.*

*Qəlbimin işığı, gözümə nursan,*
*Yerdə də, göydə də hər yerdə varsan.*
*Allahım, mən azıb yolumdan sapsam,*
*Allahım, Oktayı özünə qaytar.*

## KÜSMÜŞƏM

*Nə dərə günahkar, nə duman, könlüm,*
*Ətirli çiçəkdən, güldən küsmüşəm.*
*Bu hüsnü gözəllik çaşdırdı məni,*
*Hər sözü şəkərdən, dildən küsmüşəm.*

*Sözü var mirvari, gül butasınnan,*
*Saz düşdü könlümə el havasınnan.*
*Köç edər dağlara el-obasınnan,*
*Ay ellər, demədim eldən küsmüşəm.*

*Heyranlıq duymuşam söz qüdrətinnən,*
*Yerlərin, göylərin səltənətinnən.*
*İnciklik duymadım göy qübbəsinnən,*
*Ədası hündürdən, zildən küsmüşəm.*

*Bir şikar oxladın, gəzdim yaralı,*
*Bir biləydim hansı eldən, haralı,*
*Yozmayın sözümü söz adamları,*
*Bir zülfü gecədən, teldən küsmüşəm.*

*Çox varmışam yaxşı-pisin fərqinə,*
*Haqq alıbsa, sözüm yoxdur qəhrinə.*
*Bu dünyanın görən mənlə dərdi nə,*
*Mən elə özüm də məndən küsmüşəm.*